# Azərbaycan Silahlı Qüvvələri Vətənimizin etibarlı müdafiəçisi, xalqımızın qürur mənbəyidir




*Müstəqil respublikanın gərək güclü ordusu olsun. Bu gün torpaqlarımızı müdafiə etmək üçün belə ordu bizə hava-su kimi lazımdır. Belə ordu sabah, gələcək üçün, müstəqil respublikamızın müstəqilliyini təmin etməkdən ötrü də lazımdır. Ona görə də ordu quruculuğu, ordu yaratmaq hər birimizin müqəddəs borcudur.*

***Heydər ƏLİYEV***
***Ümummilli lider***

*Bu gün Azərbaycan Ordusu güclü ordudur. Bütün beynəlxalq reytinqlərə görə o, dünyanın ən güclü 50 ordusunun siyahısına daxildir. Azərbaycan 44 gün ərzində parlaq qələbə qazanaraq Ermənistanı məğlub etdi, işğala son qoydu. Bizim şanlı ordumuzun 44 günlük müharibəsi XXI əsrin müharibəsidir.*

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

❒ ***Min illər boyu bir çox xalqlar torpağını, dövlətini, milli əlamətlərini itirərək tarix səhnəsindən yoxa çıxmışdır. Azərbaycan xalqının bu günə öz ərazisi, dövləti, dili və mədəniyyəti ilə gəlib çıxması tarixi xoşbəxtlik kimi babalarımızın yurd sevgisindən, torpağı qoruyub saxlamasından güc almış, bu özül üzərində milli varlığımız həmişəyaşarlıq qazanmışdır. Bu müqəddəs dəyərlər istiqlal məfkurəsinə çevrilərək 104 il əvvəl Azərbaycan Xalq Cümhuriyyətini ərsəyə gətirəndə milli hökumətin ilk önəmli tədbirlərindən biri ərazilərimizi və milli varlığımızı qorumaq üçün müstəqil dövlətin xalq ordusunun yaradılması olmuşdu.***

Milli dövlətçiliyimizin dirçəldilməsinin ən önəmli tarixlərindən olan 1918- ci ilin 26 iyun günü – AXC ordusunun yaradılması tarixi 1991-ci ildə suverenliyimizin bərpasından sonrakı dövrdə hər il ölkəmizdə Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü adı ilə ümumxalq bayramı kimi qeyd edilir. Hər il 26 iyun günündə milli ordumuzun yaranma tarixinə və rəşadətli fəaliyyətinə öyünclə nəzər salırıq. Bu sevincli duyğu-düşüncələr çağdaş nəsillərin babaların ən qiymətli əmanəti olan Azərbaycan torpaqlarını və müstəqil dövlətimizi göz bəbəyi kimi qorumaq ruhunda tərbiyəsində çox önəmli amildir.

Bizim günlərdə 26 İyun tarixinin yüksək məna-mahiyyəti ondan ibarətdir ki, 1918-ci ildə çar Rusiyası imperiyasının süqutundan sonra Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti yaranmışdı. Cəmi 23 ay ömür sürməsinə baxmayaraq, cümhuriyyət dövründə müstəqil dövlətin ən zəruri atributları, o cümlədən, milli ordusu formalaşdırılmışdı.

*(ardı 3-cü səhifədə)*

# Azərbaycan Silahlı Qüvvələri Vətənimizin etibarlı müdafiəçisi, xalqımızın qürur mənbəyidir



*(əvvəli 1-ci səhifədə)*

Həmin dövrdə həm ermənilərin, həm də bolşeviklərin işğalçılıq siyasətinə qarşı mübarizə aparmalı olan ADR hökuməti 1918-ci il iyunun 19-da gərgin vəziyyəti nəzərə alaraq bütün Azərbaycan ərazisində hərbi vəziyyət elan etmişdi. İyunun 26-da diviziya statusunda hərbi korpusun yaradılması barədə qərar qəbul olunmuşdu və Azərbaycanda milli ordunun təməli qoyulmuşdu. 1918–1920-ci illərdə görkəmli generallarımız Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski və digər peşəkar hərbçilərimizin rəhbərliyi ilə Azərbaycanda hərbi hazırlıqlı və intizamlı milli ordu hissələri formalaşdırılmışdı. O zaman Azərbaycan Ordusunun Hüseynxan Naxçıvanski, İbrahim ağa Usubov, Həmid Qaytabaşı, Kazım Qacar, Cavad bəy Şıxlinski, Həbib bəy Səlimov kimi istedadlı generalları var idi.

Qeyd olunduğu kimi, 104 il əvvəl iyunun 2-da AXC hökumətinin qərarı ilə Azərbaycan Milli Ordusunun yaradılmasına başlanıldı. Avqustun 1-də isə AXC-nin Hərbi Nazirliyi təsis edildi. Qısa müddət ərzində Milli Ordu Osmanlı dövlətinin Qafqaz İslam Ordusu ilə birlikdə Bakını və ətraf qəzaları erməni-bolşevik işğalından xilas etdi. Bu hərbi birləşmələr Muğanda və Əsgəranda milli hökumətə qarşı baş vermiş qiyamları yatırmaqda yüksək səriştəlilik göstərdi, Qazaxda Azərbaycan sərhəddini pozmuş erməni nizami ordu hissələrini darmadağın etdi.

Azərbaycanın istiqlaliyyətinin elan olunduğu tarixi şərait, onun qərar tutduğu bölgədə cərəyan edən proseslər xalqın müstəqilliyinə real dayaq ola biləcək güclü milli ordunun formalaşdırılmasını tələb edirdi. Hələ Türkiyə hərbi qüvvələri Azərbaycanda olarkən başlamış ordu quruculuğunu yenidən canlandırmaq və onu daha səmərəli aparmaq üçün 1918-ci il oktyabrın 23-də hökumətin iclasında Hərbi Nazirliyin yaradılması qərara alındı. Nazirlər Şurası tərəfindən belə bir qərar 1918-ci il noyabr ayının 1-də imzalandı.

Yeni şəraitdə Azərbaycanın ərazi bütövlüyünün qorunması tamamilə Hərbi Nazirliyin üzərinə düşməli idi. Bu struktur hökumətin qarşısında dayanan tarixi vəzifələrin həllində çox mühüm rol oynadığından ona rəhbərliyi ilk vaxtlar Nazirlər Şurasının sədri F.Xoyski öz üzərinə götürdü. Tam artilleriya generalı Səməd bəy Mehmandarov nazir müavini təyin edildi və nazirliyin formalaşdırılması ona tapşırıldı.

Azərbaycan xalq ordusunun qısa vaxt ərzində formalaşdırılmasının əsas səbəblərindən biri də bu idi ki, həmin prosesə rəhbərlik edən şəxslər ümumi nəzəri dəyərlər və əldə olan təcrübə ilə ordu quruculuğunun yerli şəraitindən irəli gələn xüsusiyyətlərini çox incəliklə və üzvi şəkildə birləşdirə bilmişdilər. Hərbi Nazirlik yaradılanda bu istiqamətdə müəyyən çətinliklər də mövcud idi. Bir tərəfdən, türk qoşunları Azərbaycanı yenicə tərk edirdilər. Cümhuriyyət ordusu quruculuğunun ilkin mərhələsi türk hərbçilərinin rəhbərliyi altında aparıldığından ordu daxilində onların dəsti-xətti qalmaqda idi. Digər tərəfdən, Cümhuriyyət ordusunda xidmət edən yüksək rütbəli zabitlərin, demək olar ki, hamısı xidməti çar ordusu sıralarında keçmişdilər və rus ordusunun ənənələri ruhunda tərbiyə olunmuşdular.

Cümhuriyyət ordusunun milli dəyərlər üzərində formalaşdırılması üçün, ilk növbədə, bu təsirlərin Azərbaycan şəraitinə uyğun gəlməyən tərəfləri aradan qaldırılmalı idi. Həmin problem Hərbi Nazirliyin mövcud olduğu, təxminən, il yarım ərzində ardıcıl olaraq həll edildi. Ordu quruculuğunda türk və rus təcrübəsinin güclü təsirə malik olmasına baxmayaraq, Azərbaycanda milli zəminə söykənən silahlı qüvvələr formalaşdırıldı və proseslərin sonrakı inkişafı da qonşu dövlətlərin ordu quruculuğu təcrübəsinin kor-koranə təkrarlanmamasının doğruluğunu təsdiqlədi.

1918–1920-ci illərdə Azərbaycanda ordu quruculuğunun başlıca aspektlərindən biri bu fəaliyyət sahəsinin dövlət quruculuğunun mərkəzində dayanması idi. Müstəqilliyin qorunması üçün düzgün seçilmiş siyasi-strateji xətt ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsinə real zəmin yaratmışdı. Hərbi quruculuq məsələləri yeni cəmiyyət quruculuğunun bütün sahələri ilə sıx şəkildə tənzimlənir, bütün imkanların Azərbaycanın ərazi bütövlüyünün qorunmasına səfərbər olunması üçün təxirəsalınmaz və qəti addımlar atılırdı. Həm ali qanunvericilik orqanı olan ölkə parlamenti, həm də icraedici orqan olan Nazirlər Şurası bu istiqamətdə öhdələrinə düşən vəzifələrə böyük məsuliyyətlə yanaşırdılar.

Ölkə parlamenti mövcud olduğu dövrdə hərbi quruculuğun müxtəlif sahələri ilə bağlı 9 qanun layihəsini nəzərdən keçirmiş və müvafiq qərarlar qəbul etmişdi. Həmin qərarların hər biri dövlətin müdafiə gücünün artırılması üçün həm cari, həm də perspektiv əhəmiyyətə malik idi və bu qərarlar icraedici orqanların fəaliyyətinin istiqamətləndirilməsi üçün əsas kimi qəbul edilmişdi. Öz işini ölkə daxilində cərəyan edən proseslərlə sıx surətdə əlaqələndirən parlament dövlətin müstəqilliyinin qorunması sahəsində gərginlik yaradan məsələlərə dərhal reaksiya verir və bunları müzakirə obyektinə çevirirdi.

Hərbi Nazirlik təsis edildikdən sonra, ilk növbədə, pərakəndə olan hissələri möhkəmləndirmək, onları vahid rəhbərlik altına gətirmək üçün mərkəzi hərbi idarəetmə orqanlarının təşkilinə diqqət yetirildi. Qısa müddət ərzində milli hərbi qurumun aparatı yaradıldı. Nazirliyin təşkili barədə hökumət qərarından iki həftə sonra, noyabrın 15-də ordunun ümumi qərargahının təsis edilməsi barədə Səməd bəy Mehmandarovun müvafiq əmri imzalandı.

Mudros müqaviləsinin şərtlərinə görə, müttəfiq dövlətlər adından Bakıya gəlməli olan ingilis qüvvələri komandanı general V.Tomson hələ Azərbaycana qədəm qoymamışdan əvvəl tələb edirdi ki, 1918-ci il noyabrın 17-dək türk qoşunları kimi Azərbaycan hərbi hissələri də Bakı şəhərini tərk etsin. Çünki Tomson Bakı şəhərini istər iqtisadi, istərsə də hərbi-siyasi baxımdan mühüm strateji mərkəz sayırdı və ona nəzarəti tamamilə öz əlində saxlamaq istəyirdi. O, müstəqil Azərbaycan hökumətini tanımaq istəmədiyi kimi, onun nəzarəti altında olan hərbi qüvvələrə də etibar etmirdi. Bu səbəbdən, 1918-ci il noyabrın 22-də Hərbi Nazirlik Gəncəyə köçdü və öz fəaliyyətini burada davam etdirdi.

İngilis qoşunlarının komandanlığı Hərbi Nazirliyin Bakıdan kənarda fəaliyyət göstərməsinə etiraz etmirdi. Bütün hökumət strukturlarının Bakıda yerləşdiyi halda, Hərbi Nazirliyin Gəncəyə köçürülməsi, şübhəsiz ki, bu strukturla hökumət orqanlarının əlaqələrində və bütünlüklə ordunun formalaşma prosesində çətinliklər yaradırdı. Bununla belə Hərbi Nazirliyin rəhbərliyinin səmərəli fəaliyyəti ordu quruculuğu prosesində bir ardıcıllıq yaratdı. Bu istiqamətdə düzgün siyasətin formalaşması və onun yerinə yetirilməsi üçün yüksək təşkilatçılıq işlərinin həyata keçirilməsi qısa zaman ərzində öz nəticəsini verdi.

Cümhuriyyət ordusunun əsas qüvvələri də məhz Hərbi Nazirliyin Gəncədəki fəaliyyəti zamanı təşkil edilmişdi. Hərbi Nazirlik yaradılana kimi mövcud olan hissə və birləşmələr başlıca olaraq Gəncə və Qarabağda yerləşdirilmişdi. Bu da tarixi şəraitlə və qoşun hissələrinin icra etdikləri vəzifələrlə bağlı idi. Hərbi Nazirlik Gəncədə yerləşəndən dərhal sonra, 1918-ci il noyabrın 27-dən dekabrın 3-dək ordu rəhbərliyi Gəncə və Ağdam ətrafında yerləşən hərbi hissələrə səfər etdi və oradakı vəziyyətlə şəxsən tanış oldu.

Hərbi nazir hələ türk qoşunları Azərbaycanda olarkən təşkil edilmiş bu hissələrdə çox ciddi nöqsanlarla rastlaşdı və bu onları ümumiləşdirərək xüsusi əmr imzaladı və hissə komandirlərindən belə nöqsanların aradan qaldırılmasını tələb etdi. Hər şeydən əvvəl o, hissə və bölmə komandirləri qarşısında belə bir vəzifə qoydu: müstəqil Azərbaycan Ordusunda xidmət edən bütün şəxslərin dərhal Azərbaycan Respublikasına sədaqət andı içməsi təşkil edilsin. 1918-ci ilin sonu, 1919-cu ilin əvvəllərində Hərbi Nazirliyin rəhbərliyində və strukturunda qismən dəyişiklik edildi ki, bu da ordunun formalaşması prosesinə müsbət təsir göstərdi.



Nazirlər Şurasının 25 dekabr 1918-ci il tarixli qərarı ilə tam artilleriya generalı Səməd bəy Mehmandarov hərbi nazir təyin edildi. Hökumətin 29 dekabr 1918-ci il tarixli qərarı ilə general-leytenant Ə.Şıxlinski hərbi nazirin müavini təyin edildi. Bu qərar da Azərbaycan Ordusunun formalaşdırılması istiqamətində hökumətin qəbul etdiyi dəyərli qərarlardan biri idi. Çünki onların təcrübəsi və biliyi orduda quruculuq işlərinin səmərəli xarakter almasına zəmin yaratdı. Hərbi Nazirliyin rəhbərliyi ordu və dövlət arasındakı münasibətlərin mahiyyətini kifayət qədər dəqiqliklə müəyyənləşdirmiş və bütün fəaliyyəti boyu ona riayət etmişdi.

Hərbi nazir S.Mehmandarov əmrlərində dəfələrlə qeyd etmişdi ki, ordu heç bir siyasətə qarışmamalı, ona tapşırılan vəzifələrin icrası ilə məşğul olmalıdır. Məhz bu tələbi rəhbər tutmağın nəticəsi idi ki, respublika hökumətinin bir neçə kabineti təşkil edilsə də, Hərbi Nazirliyin rəhbərliyi dəyişməz qalmışdı. S.Mehmandarov və onun silahdaşlarının prinsipiallığını, ardıcıllığını AXC hökumətinin bütün kabinetləri yüksək qiymətləndirmişdi. Yeni yaranan kabinetlərin rəhbərləri Hərbi Nazirliyin rəhbərliyini dəyişməz olaraq saxlamışdılar. Bu nazirlik cümhuriyyətin qurulduğu tarizi ərazilərimizin bütölüyünü təmin etmiş, qarşısına qoyulan vəzifəni şərəf və məsuliyyətlə yerinə yetirmişdir.

Təəssüf ki, Azərbaycanın bolşevik rus ordusu tərəfindən işğalından sonra müstəqilliyimizin ən mühüm atributu olan ordu hissələri də ləğv edilmiş, milli zabit kadrlarına amansız divan tutulmuşdu. 1920-ci il aprelin 28-dən 1921-ci ilin avqustunadək olan müddətdə Azərbaycanda 48 min adam qırmızı terrorda məhv edilmişdi. 1921-ci ilə qədər Azərbaycan-türk hərbçilərindən 12 general, 27 polkovnik və podpolkovnik, 46 kapitan, 266 nəfər hərbi işçi güllələnmişdi. Matvey Sulkeviç, İbrahim ağa Usubov, Əliyar bəy Haşımbəyov, İmamulla Mirzə Qacar, Kazım Mirzə Qacar, Həmid Qaytabaşı, Həmid bəy Səlimov, Rza bəy Şıxlinski, İsgəndər bəy Seyfulin, İsmayıl xan Ziyadxanov və digər tanınmış hərbçilər güllələnənlər sırasında idilər.

Lakin Azərbaycan Xalq Cümhuriyyəti dövründə müstəqilliyin necə şirin olduğunu anlayan, ölkəni gözləyən təhlükələri aydınca görən hərbçilərimizin əksəriyyəti sonrakı illərdə də tutduqları yoldan çəkilməmişdilər. Sovet dövründə AXC-nin müdafiə quruculuğu irsinin axıradək məhv edilməsi Azərbaycan xalqının hərbi ənənələrini, döyüş ruhunu sarsıtmamışdı. 1939--1945-ci illərdə İkinci Dünya müharibəsinin gedişi, nəticələri bu həqiqəti bir daha təsdiqləmişdi. Azərbaycan xalqı öz zəngin hərbi-tarixi ənənələrinə sadiq qalaraq bu müharibədə də əsl şücaət, əzmkarlıq göstərmişdi.

Həmin dövrdə Azərbaycan milli diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçmişdi. İkinci Dünya müharibəsi cəbhələrində general Həzi Aslanov, Mehdi Hüseynzadə, Ziya Bünyadov, İsrafil Məmmədov, Gəray Əsədov, Məlik Məhərrəmov kimi bir çox qəhrəmanları əsl mərdik və şücaət nümunəsi göstərmişdilər. Onların qəhrəmanlığı sayəsində Azərbaycanın şanlı hərb tarixi ənənələri XX əsrdə də uğurla davam etdirilmişdi.



Müharibədən sonrakı dövrdən 1969-cu ilədək Azərbaycanda milli hərbi kadr hazırlığına keçmiş SSRİ rəhbərliyi yenə də qısqanc münasibət bəsləmişdi. Yalnız ümummilli lider Heydər Əliyev respublikamıza rəhbərlik etməyə başladığı dövdən hərbi quruculuq, milli zabit kadrlarının hazırlığı məsələləri daim önə çəkilmişdi. Ulu öndər 1971-ci ildə böyük səylər nəticəsində Azərbaycanda hərbi kadrlar hazırlayan məktəbin– görkəmli sərkərdə Cəmşid Naxçıvanskinin adını daşıyan hərbi liseyin yaradılmasına nail olmuşdu. O dövrdə Azərbaycan hər il, təxminən, 60 min gənci ordu sıralarına göndərirdi. Lakin onların böyük əksəriyyəti inşaat batalyonlarında xidmətə aparılırdı. Hərbi hissələrdə azərbaycanlı zabitləri barmaqla saymaq olardı. Odur ki, Bakıda belə bir hərbi məktəbin açılmasının böyük əhəmiyyət var idi.

Yurdsevər espublika rəhbəri Heydər Əliyev azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərinə, eləcə də SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul olunmasına da nail olmuşdu. Beləliklə, ümummilli lider Heydər Əliyev Azərbaycanın müstəqillik əldə etməsindən 20 il öncə milli hərbi kadr hazırlığı üçün zəruri bazanın mümkün olan səviyyədə təşkilini həyata keçirmişdi. Bu hərbi məktəb müstəqilliyimizi əldə etdikdən sonra milli ordu quruculuğunun əsas dayağına çevrilmişdi.

Azərbaycan Xalq Cümhuriyyətinin ordu quruculuğu ənənəsinin və təcrübəsinin nəzərə alınması 70 il sonra müstəqil dövlətin güclü milli ordusunun yaradılması üçün son dərəcə gərəkli oldu. Çağdaş tariximizə adını 2020-ci ilin Vətən müharibəsində müzəffər ordu kimi yazmış Azərbaycan Silahlı Qüvvələri dövlət müstəqilliyimizin yetirməsidir. Azərbaycan Xalq Cümhuriyyətinin yaşıdı olan milli ordumuz öz şanlı tarixinin 102-ci ilində II Qarabağ müharibəsini zəfərlə başa çatdırmaqla müstəqil dövlətimizin 30 ildən bəri ən ağrılı problemi olmuş Qarabağ münaqişəsini birdəfəlik aradan qaldırdı.

Azərbaycan xalqı dövlət müstəqilliyimizin bərpasından keçən 30 ildə ümummilli bayramlarımızdan sayılan Silahlı Qüvvələr Gününü ilk dəfə 2020-ci ilin qələbə sevinci ilə qarşıladı. Azərbaycan xalqının dövlətçilik və qəhrəmanlıq tarixində qürurlu bir səhifəyə çevrilmiş 44 günlük Vətən müharibəsində əldə edilmiş böyük zəferi şərtləndirən amillərdən danışarkən Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev 3 məqam üzərində xüsusi olaraq dayanıb – güclü Dövlət, güclü Xalq və güclü ordu. Yəni müharibə sınaqlarından o ölkə qalib çıxa bilər ki, orada güclü dövlət, güclü xalq və güclü ordu olsun.



Bu formul, əslində, dünya müharibələrinin təcrübəsindən, müstəqilliyin bərpasından sonra Dağlıq Qarabağ ətrafında gedən proseslərin acı dərslərindən və eləcə də Vətən müharibəsinin şərəfli təcrübəsindən irəli gələn bir qənaəti əks etdirir. Çünki məhz güclü dövlət olan yerdə xalqın gücünü ortaya çıxarmaq və tarixi vəzifələrin icrasına istiqamətləndirmək olar. Güclü dövlət və xalq olmayan yerdə isə güclü ordu ola bilməz. Bu 3 amilin qarşılıqlı və yaradıcı əlaqəsi isə Vətən müharibəsində əldə edilmiş böyük Zəfər kimi tarixi möcüzənin yaradılmasının başlıca şərtidir.

Bu gün hamılıqla sevincini yaşadığımız o böyük Zəfərin təminatçısı olan güclü dövlətin, güclü xalqın və güclü ordunun tarixi isə öz başlanğınıcı, heç şübhəsiz ki, ulu öndər Heydər Əliyevin 1993- cü ildə hakimiyyətə qayıdışından götürür. Məhz ulun öndərin hakimiyyətə gəlişi ilə Azərbaycanın dövlətçilik tarixinə, xalqın təşkilatlanma tarixinə və ordu quruculuğu tarixinə yeni və parlaq bir səhifə yazıldı. Həm də Azərbaycanın gələcək tarixində xüsusi əhəmiyyət kəsb edəcək güclü dövlət, güclü xalq və güclü ordu təcrübəsi formalaşdı.

Yaxın tariximizdən bəllidir ki, ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışına qədərki müstəqillik dövründə iqtidarda olan qüvvələrin səriştəsizliyi, qrup və hakimiyyət ehtiraslarının ümummilli maraqları kölgədə qoyması, siyasi qüvvələr arasındakı didişmələr və parçalanmalar dövləti dərin böhrana sürükləmişdi. İqtidarla xalq arasındakı uçurum dərinləşmiş, ölkədə vətəndaş müharibəsi təhlükəsi yaranmışdı. Nəticədə, respublika daxilində separatçı qüvvələr baş qaldırmış və xarici siyasət isə dar çərçivəyə qapanmışdı.

Milli və dövlət maraqlarına cavab verməyən həmin yarıtmaz siyasət nəticəsində Azərbaycanın ordusu da dərin bir böhranla üzbəüz qalmışdı. Çünki ordu quruculuğu ilə bağlı dövlətin aydın bir siyasəti yox idi, dövlət və ordu bir-birindən ayrı düşmüşdü. Ordu daxilində siyasi mənsubiyyətə və məqsədlərə görə parçalanmalar yaranmışdı, vahid komandanlıq təmin edilməmişdi. Bu isə Vətənin müdafiəsi istəyi ilə silaha sarılmış minlərlə insanın gücünün vahid zərbə qüvvəsinə çevrilməsinə imkan vermirdi.

1993-cü ilin aprelində Kəlbəcər işğal altına düşəndən sonra isə Azərbaycanda vətəndaş müharibəsi təhlükəsi yarandı. Ölkə ərazilərinin müdafiəsində dayanmalı olan Azərbaycan əsgərinə qarşı silah qaldırıldı, itkilər verildi. Belə bir vəziyyətdə xalqın tələbi və istəyi ilə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Naxçıvandan Bakıya gəldi və tarixi bir xilaskarlıq missiyası ilə respublikanı qarşılaşdığı real süqutdan xilas etdi.

Zəngin dövlətçilik təcrübəsinə malik olan Heydər Əliyev respublikanı düşdüyü böhrandan addım-addım çıxarmaqla və güclü dövlətin əsasını qoymaqla, ordu quruculuğunu dövlət quruculuğunun ayrılmaz istiqamətinə çevirdi, dövlətin bütün potensialını ordu quruculuğuna istiqamətləndirdi. Heydər Əliyev dövlətin orduya rəhbərliyini bu prosesin məhvərinə çevirdi, bu prosesə yeni bir məzmun verdi, bu proseslə bağlı dövlətin vahid siyasətini müəyyənləşdirdi və zəruri olan qüvvə və vasitələri də bu siyasətin icrasına səfərbər etdi.

Respublikada hərbi-siyasi şəraitin mürəkkəbləşməsi ilə bağlı 1993-cü il noyabr ayının 2-də Heydər Əliyevin radio və televiziya ilə xalqa müraciəti də xalqa və onun gücünə dayaqlanmağın təsdiqedici bir nümunəsidir. Bu müraciət bir tərəfdən sağlam ordu quruculuğunun əsaslarını və bu istiqamətdə xalqın və dövlətin qarşısında dayanan mühüm vəzifələri müəyyənləşdirən konseptual bir sənəd idisə, bir tərəfdən də Heydər Əliyevin gücünə arxalandığı xalqa çağırışı idi. Bu çağırış xalqın bütün təbəqələri tərəfindən qəbul edildi və öz potensialını Vətənin müdafiəsinə istiqamətləndirildi.

Ulu öndər Heydər Əliyev xalqın potensialını ordu quruculuğu kimi mühüm bir sahəyə də səfərbər edə bildi. Məhz xalqın mübarizə gücünün təşkilatlandırılması, səfərbər edilməsi və milli maraqlar müstəvisində istiqamətləndirilməsi nəticəsində Prezident Heydər Əliyev güclü ordunun yaradılmasına da nail oldu.

Ordu quruculuğunda düzgün yolun seçilməsi, dövlətin və xalqın sağlam potensialının bu prosesə səfərbər edilməsi dərhal da öz nəticələrini verməyə başladı. 1993-cü ilin sonlarında və 1994-cü ilin əvvəllərində Füzuli istiqamətində işğal altında olan xeyli sayda yaşayış məntəqələrinin erməni qoşunlarından təmizlənməsi, 1994-cü ilin martında Tərtər–Ağdam istiqamətində irimiqyaslı hücumlara başlayan Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbə vurulması Heydər Əliyevin rəhbərliyi altında yenidən əsası qoyulmuş Azərbaycan Ordusunun və bu qurumu təşkilatlandıran Azərbaycan dövlətinin yeni gücünü nümayiş etdirdi.

1994-cü ilin may ayında cəbhə xəttində atəşkəsə nail olunması isə həm Azərbaycan dövlətinin, həm də Azərbaycan Ordusunun gücləndirilməsi üçün daha əlverişli imkanlar yaratdı. Öz zəkası, sonsuz təcrübəsi və işgüzarlığı ilə Heydər Əliyev Azərbaycanın müstəqilliyinə və ərazi bütövlüyünün təmin edilməsinə qarant ola biləcək güclü dövlətin və onun ordusunun memarına çevrildi.

Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyev şübhə etmirdi ki, Azərbaycanın müstəqilliyinin əbədi və dönməz olması üçün də belə bir ordu təşkilatlandırılıb inkişaf etdirilməlidir: "Müstəqil respublikanın gərək güclü ordusu olsun. Bu gün torpaqlarımızı müdafiə etmək üçün belə ordu bizə hava-su kimi lazımdır. Belə ordu sabah, gələcək üçün, müstəqil respublikamızın müstəqilliyini təmin etməkdən ötrü də lazımdır".

Bütünlükdə, Prezident Heydər Əliyev ordu quruculuğuna münasibətdə cəmiyyətdə yeni bir təfəkkür formalaşdırdı, insanlarda orduda xidmətə yeni bir münasibət yarandı, əvvəlki dövrlərdə orduya olan etimadsızlıq, ordunun ayrı-ayrı qruplarının fəaliyyətindən doğan ehtiyatlılıq və nigarançılıq aradan qaldırıldı, ordunun xalqın bir parçası olmasının real anlamı cəmiyyətdə bərqərar olundu.

Ulu öndərin ən layiqli davamçısı İlham Əliyevin prezidentliyi dövründə isə bu proses yüksələn xətlə davam etdi. Heydər Əliyev siyasətinə sədaqət və bu siyasətə yaradıcı münasibət Azərbaycan Ordusunu daha da möhkəmləndirdi. Qısa müddət ərzində bu ordunun texniki təchizatında köklü dəyişikliklər baş verdi. Hərbi büdcənin ildən-ilə artırılması, habelə respublikanın daxilində hərbi-sənaye komp-leksinin yaradılması Azərbaycan Ordusunu dünyanın ən müasir silahlarla təmin edilmiş ordularından birinə çevrirdi.

Ordunun infrastrukturunun yenilənməsi, kadr hazırlığının dünya təcrübəsi səviyyəsinə qaldırılması, şəxsi heyətə qayğının daha da artırılması qoşunları döyüş hazırlığına yeni tələblərin irəli sürülməsi ordunun döyüş qüdrətini yüksəltdi. Bunu Azərbaycanın dostları da, düşmənləri də etiraf etmək məcburiyyətində qaldılar. Yenidən elmi-nəzəri əsaslar üzərində qurulmasına ulu öndər Heydər Əliyevin prezidentliyi illərində başlanan Azərbaycan Ordusu dünyanın 50 güclü orduları sırasında yer tutdu.

Azərbaycan Ordusunun güclənməsi, əslində, Azərbaycan dövlətinin güclənməsinin əyani ifadəsi oldu. Dövlətin, xalqın və ordunun gücü isə 2016-cı ilin Aprel döyüşləri, 2020-ci ilin iyulunda Azərbaycan–Ermənistan sərhədinin Tovuz rayonu sahəsində baş vermiş erməni silahlı təxribatının qarşısının alınması zaman bütün dünyanı heyrətdə qoydu. 3 ay sonra– sentyabrın 27-də başlanan Vətən müharibəsi dövründə isə Azərbaycanın güclü dövləti, güclü xalqı və güclü ordusu dəmir yumruğa çevrildi, çoxlarının təsəvvür edə bilməyəcəyi bir qüdrəti özündə əks etdirdi. II Qarabağ müharibəsində himayədarlarının yardımı ilə Azərbaycan torpaqlarında əbədilik kök salacaqlarına şübhə etməyən ermənilərə və dünya erməniliyinə, eləcə də onların işğalçılığı qarşısında vicdan səslərini unutmuş böyük qüvvələrə layiq olduqları dərs verildi.

44 günlük müharibənin sonunda– noyabrın 8-də mədəniyyət beşiyi, qeyrət qalası Şuşanın fəthi ilə Ermənistan Azərbaycan qarşısında diz çökdü, Ermənistan ordusu məhv edildi, erməniliklə bərabər erməni xislətində olanlara göz dağı verildi. Azərbaycan xalqı yenidən işğal altında qalmış torpaqlarına qayıtdı, Şuşaya döndü. Ulu öndər Heydər Əliyevin də ata vəsiyyəti həyata keçdi. Bu gün onunla birlikdə, Azərbaycanın ərazi bütövlüyü uğrunda həyatlarını qurban vermiş minlərlə şəhidin də ruhu şaddır. Çünki Qarabağ yenidən Azərbaycandır!

Ali Baş Komandan İlham Əliyevin bəyan etdiyi kimi: "Biz bu gün xalqımızın və dövlətimizin yeni tarixini yazırıq, şanlı tarixini yazırıq. Biz bu gün tarixi ədaləti bərpa edirik. Biz öz tarixi missiyamızı şərəflə yerinə yetirdik, işğal olunmuş torpaqları düşməndən azad etdik". Bununla çox böyük dövlətlər üçün oyun məkanı olan Dağlıq Qarabağ münaqişəsi də həll olunaraq tarixə qovuşdu.

Möhtərəm Prezidentimizin Milli Ordunun formalaşmasına, güclənməsinə göstərdiyi diqqət və qayğı sayəsində bu gün Azərbaycan ordusu regionun qüdrətli silahlı qüvvəsidir. Müstəqil Azərbaycan dövləti yenilməz, peşəkar, qüdrətli bir orduya malikdir. Azərbaycan Ordusu NATO standartlarına tam cavab verir. Bunu NATO rəsmiləri də ölkəmizdə səfərdə olarkən təsdiqləyiblər. Milli Orduda peşəkarlıq getdikcə artır, maddi-texniki baza yenilənir. Çünki Azərbaycan sürətlə inkişaf edən ölkədir.

Dövlət başçısı İlham Əliyevin ordumuzun inkişafına daim qayğı göstərməsi, onun daha da qüdrətli olması üçün bütün tədbirlərin həyata keçirilməsi sayəsində Milli Ordumuz daha da təkmilləşir, ən müasir hərbi qüvvə kimi güclənir. Azərbaycanın Silahlı Qüvvələri müstəqil dövlətimizin etibarlı müdafiəçisi, xalqımızın qüdrətli güvənc yeri, sonsuz qürur mənbəyidir.

***Mehman SÜLEYMANOV,***
***Silahlı Qüvvələrin Hərbi Akademiyasının professoru, tarix üzrə elmlər doktoru, ehtiyatda olan polkovnik***